**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ**

**TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN COĞRAFİYASI VƏ COĞRAFİYANIN TƏDRİSİ METODİKASI KAFEDRASI**

**COĞRAFİYA və COĞRAFİYA MÜƏLLİMLİYİ İXTİSASI**

# TÜRK DÜNYASININ COĞRAFİYASI

**fənni üzrə**

# P R O Q R A M

*“ Türk dünyasının coğrafiyası”fənni üzrə proqram BDU-nun Coğrafiya fakultəsinin Elmi Şurasının 11 dekabr 2022-ci il tarixli 4 saylı protokoluna əsasən təsdiq edilmişdir.*

***Bakı-2023***

***Tərtib edənlər: dos. N.S.Seyfullayeva,***

***dos. Ü.T.İsmaylova,***

***Q.V.Məmmədov***

***Rəyçilər:***

1. *AMEA nın Coğrafiya İnstitunun icraçı direktoru*
   ***c.ü.f.d., dosent Zaur İmrani***

2. *ADPU Tarix və Coğrafiya fakultəsinin "İqtisadi coğrafiya və coğrafiyanın tədrisi metodikası" kafedrasının müəllimi,*
   ***c.ü.f.d. Qabil Səmədov***

# *Giriş*

Müasir dövrdə Avrasiya materikində geniş bir ərazidə (təqribən 12 milyon kv.km), məskunlaşan, sayı 210 milyondan çox olan türk xalqlarının yayldığı ərazi və yaxud türk dünyasının tarixinin- coğrafi baxımdan indiyədək dərindən tədqiq edilməməsi müəyyən səbəblərdən asılı olmuşdur. Türk dünyası dedikdə göz önünə - sonsuz və ucsuz-bucaqsız bərəkətli torpaqlar, zəmilər, meşələr, çaylar və dənizlər, sərvəti dillərə dastan olmuş böyük bir Vətən gəlir. Türk xalqları çox böyük məsafədə bir-birindən ayrı yaşamalarına baxmayaraq, bir sıra xüsusiyyətlərini: dil, adət-ənənə, mədəniyyət və s. ümumiliyini saxlaya bilmişlər.

XXI əsr dünyanın siyasi mənzərəsində geosiyasətin əsas istiqamətverici meyarlarının müəyyənləşdiriləsində yeni yanaşmanın müşahidə olunmasi ilə daxil oldu. Belə ki, geopolitika anlayışının yarandığı dövrdən indiyədək uzun müddət əsas münasibətlər milli dövlətlərin və ya ideologiyaların maraqları üzərində qurulduğu halda, qloballaşmanın getdikcə dərinləşdiyi müasir dövrümüzdə artıq geopolitikada belə əsas proseslərin sivilizasiyaların maraqları hesabına formalaşması fikri ortaya atılmışdır. Bu baxımdan müxtəlif sivilizasiyaların qovşağında yerləşən türk dövlətlərinə daha dəqiq türk dünyasına olan münasibət dəyişmiş, mühüm geosiyasi əhəmiyyət kəsb etməsi yüksək qiymətləndirilməkdədir. Hazırda siyasi, iqtisadi məsələlərin həllində ayrı-ayrı dövlətlərin deyil, müxtəlif məqsədlər əsasında inteqrasiya olunan ölkə qrupları ilə çıxış edirlər. Bu baxımdan Azərbaycan Respublikasının dünya birliklərində türk dövlətləri ilə birgə iştirakı müsbət qarşılanır. Türk dövlətlərinin müxtəlif sahələrdə yaratdığı birliklər ölkələr arasında siyasi-iqtisadi-hərbi-mədəni münasibətlərin güclənməsinə imkan

yaradır. Son illər türk dünyasının müxtəlif nöqteyi nəzərdən ( siyasi, tarixi, coğrafi, mədəniyyət və s) tədqiq edilməsi əsasında çox saylı informasiyalar toplanmışdır. Bu isə müxtəlif ixtisas hazırlıqlarında onları tədris etməyə imkan verir.

Proqramın tədrisi univrsitetin coğrafiya fakultəsinin coğrafiya ixtisasında təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Proqramın həcmi üçün 60 saat (30 saat mühazirə və 30 saat məşğələ) vaxt ayrılmışdı. Proqramın strukturu iki hissədən ibarətdir. Birinci hissə Türk dünyasının tarixi-coğrafi baxımdan təhlilini, türk xalqlarının Avrasiya materikində məskunlaşdığı ərazinin coğrafi xüsusiyyətlərini və türklərin həyat tərzinə təsirindən bəhs edir. İkinci hissə isə ayrı-ayrı türk dövlətlərinin fiziki-iqtisadi-sosial səciyyəsinin təsvirini əhatə edir.

***I.Fənnin təsviri:***

"Türk dünyasının coğrafiyası" kursunun univerisitetlərdə tədris edilməsi təhsilalanlarda yalnız türk dövlətlərinin öyrənilməsinə xidmət etmir. Türk dünyası təkcə coğrafi məkan kimi deyil, kökləri, genetik bağlılığı, tarixi coğrafi məkan, oxşar coğrafi toponimlər, dil, din, mədəniyyət, adət ənənə və digər xüsusiyyətləri ilə vahidlik yaradan sistemin öyrənilməsidir. Fənnin məzmununda türk dünyasının müxtəlif sivilizasiyaların qovşağında yerləşməsi, coğrafi toponimlərin təkrarlanması, türk xalqalrının geniş ərazidə məskunlaşmasının yaratdığı problemlər, türk xalqlarının yaşadığı ərazilərdin təbii şərait və təbii ehtiyatları, əhali və əmək ehtiyatları ilə təmin olunma habelə müstəqil dövlətlər, muxtariyyətə malik olan dövlət qurumları və yerli türk xalqlarının coğrafi səciyyəsi əhatə olunur.

## *II. Ümumi kompetensiyalar (ÜK):*

*UK-1 – türk dünyasının öyrənilməsinin vacibliyini nəzəri cəhətdən əsaslandırması;*

*UK-2 – türk dünyasının ümumi cəhətlərinin onlar arasında siyasi-iqtisadi-mədəni əlaqələrin artmasındakı rolunu qiymətləndirməsi;*

*UK-3 – dünyanın siyasi xəritəsində türk dövlətlərinin geosiyasi mövqeyinin təhlil edilməsi;*

*UK-4 – az saylı türk xalqlarının assimilyasının qarşısının alınması və mədəni etnik dəyərlərin qorunmasının təbliğ edilməsi*

*UK-5 – ixtisas üzrə tədqiqat- layihə işlərinin aparılması;*

## *İxtisas kompetensiyaları (İK):*

*İK-1 – Türk dünyasının öyrənilməsinə artan marağın səbəblərini şərh etmək;*

*İK-2 – Türk dünyasını birləşdirən ümumi cəhətləri təhlil etmək;*

*İK-3 – Qədim və müasir türk xalqlarının yayıldığı əraziləri fiziki-coğrafi baxımdan tədqiq etmək;*

*İK-4 – Türk xalqlarının əməkdaşlığının yeni istiqamətlərinə dair təkliflər vermək ;*

*İK-5 – Müstəqli türk dövlətlərinin birgə iştirak etdiyi qurumların fəaliyyıtinə dair layihələr hazırlamaq;*

*İK-6– Türk dünyasında mövcud olan iqtisadi potensialı dayanıqlı iqtisadiyyat baxımından qiymətləndirmək.*

## *II. Hədəfi:*

- *Türk xalqlarının ümumi xüsusiyyətlərinin onların eyni kökə malik olmaları arasında əlaqələrin olduğuna nail olmaq;*
- *Türk dünyasının tədqiqatçılarının fikirlərini müzakirə etmək;*
- *Türk dünyasının tərkibinə daxil olan az saylı xalqların asımillayası səbəblərini araşdırmaq;*
- *Türk xalqlarının geniş coğrafi ərazidə məskunlaşmasının yaratdığı problemləri təhlil etmək;*

- *Müstəqil türk dövlətləri, muxtariyyətə malik olan dövlət qurumlarının iqtisadi-coğrafi səciyyəsini əks etdirən məlumatları nümayiş etdirmək.*

***IV. Fənn üzrə təlim nəticələri:***

*FTN-1 – türk dünyasına daxil olan xalqları, dövlət və dövlət qurumlarını sadalayır.*

*FTN-2 – türk dünyasının ümumi cəhətlərini izah edir.*

*FTN-3 – türk xalqlarının yaşadığı ərazilərin fiziki-coğrafi və iqtisadi -coğrafi təsvirni verir;*

*FTN-4 – türk xalqlarının məskunlaşmasına təsir edən faktorları təhlil edir;*

*FTN-5 – Kartoqrafik təsvir vasitələrində ttürk dünyasına aid informasiyanı əldə edə bilmək bacarığını nümayiş etdirir.*

*FTN-6 – türk dünyasının sivilizasiyalar arası mövqeyinin iqtisadi-coğrafi inkişafına təsirini qiymətləndirir.*

***V.Qiymətləndirmə metodları:***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin birliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"-nin tələbləri əsas götürülür və 100 balla qiymətləndirilir. Fənnin mənimsənilmə səviyyəsini müəyyən etmək üçün qiymətləndirmə iki mərhələdə aparılır. Birinci mərhələdə mühazirədə iştirak etməsi, seminar dərslərdə və kollokvumlarda cavabına və sərbəst işləri yerinə yetirməsinə görə maksimum 50 balla qiymətləndirilir. İkinci mərhələdə tələbə İmtahanda hər biletdə 5 sual və hər bir sual maksimum 10 bal olmaqla maksimum 50 balla qiymətləndirilir. Tələbənin imtahanda topladığı bal 17-dən az olmamalıdır. Tələbənin cavabı qeyd olunan meyarlar nəzərə alınmaqla qiymətləndirilir:*

– **10 bal** - *tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;*

– **9 bal** - *tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir;*

– **8 bal** - *tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

– **7 bal** - *tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;*

– **6 bal** - *tələbənin cavabı əsasən düzgündür;*

– **5 bal** - *tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;*

– **4 bal** - *tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

– **3 bal** - *tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;*

– **1-2 bal** - *tələbənin mövzudan qismən xəbəri var;*

– **0 bal** - *suala cavab yoxdur.*

## VI.Fənnin tədrisində istifadə olunan təlim-tədris metodları:

- ❖ *Mühazirə;*
- ❖ *Disskusiyya*
- ❖ *Anket sorğu*
- ❖ *Müzakirələr;*
- ❖ *Tədqiqatın aparılması;*
- ❖ *Təqdimatlar;*
- ❖ *Tətbiqetmə;*
- ❖ *Yaradıcılığa yönəlmiş metodlar.*

*Təlim-tədris prosesində metodlara uyğun* ***üsul və texnikalardan*** *istifadə edilir:*

- *Mühazirə – anlayışın çıxarılması, suallar, klaster, əqli hücum və s.*
- *Seminar – öyrənilən material əsasında referat, təqdimat və s.*
- *Disskusiya- keys-stadi, ziqzaq, akvarium, debat və s.*
- *Müzakirələr – klassik dialoq, dairəvi masa, çarpaz müzakirə . ardıcıl sualvermə və s.*

- *Tətbiqetmə- xəritə-sxemlərin tərtib edilməsi, yaş-cins piramidalarının qurulması, qrafiklərin çəkilməsi və s.*
- *Tədqiqatın aparılması–Venn diaqramı ,klaster, probleminhəlli, layihələrin hazırlanması, qərarlar ağacı, müsahibə, sosioloji sorğu və s.*
- *Təqdimatlar – esse, sankveyn, təqdimat, işgüzar oyunlar, rollu oyunlar və s.*

## *TEMATİK PLAN*

| *№* | *Mövzular* | *Mövzuya ayrılan vaxt* | | |
|---|---|---|---|---|
| | | ***Mühazirə*** | ***Məşğələ*** | ***Cəmi*** |
| *1.* | *Türk dünyasının coğrafiyasinin predmeti tədqiq edilməsi* | **2** | **2** | **4** |
| *2* | *Türk dünyasinin tarixi coğrafiyası.* | **2** | **2** | **4** |
| *3* | *Türk dünyasını birləşdirən ümumi cəhətlər* | **2** | **2** | **4** |
| *4* | *Türk dünyasının sivilizasiyalararası mövqeyi* | **2** | **2** | **4** |
| *5.* | *Türk xalqlarının mıqrasıyası* | **2** | **2** | **4** |
| *6.* | *Türk toponımləri və onların coğrafi paylanması.* | **2** | **2** | **4** |
| *7* | *Türk dünyası ərazısının fiziki coğrafiyası və təbıı ehtıyalarının qıymətləndırılməsı* | **2** | **2** | **4** |
| *8* | *Türk dünyası əhalisi.* | **2** | **2** | **4** |
| *9* | *Türk dünyasi dövlətlərinin* | **2** | **2** | **4** |

| | | | | |
|---|---|---|---|---|
| | *geosiyasi və iqtisadi–coğrafi təhlili* | | | |
| *10* | *Müstəqil türk dövlətləri-Türkiyə Respublikası və Şimali Kipr* | ***2*** | ***2*** | ***4*** |
| *11* | *Mərkəzi Asiyanın müstəqil türk dövlətləri-Qazaxstan və Özbəkistan Respublikaları* | ***2*** | ***2*** | ***4*** |
| *12* | *Mərkəzi Asiyanın müstəqil türk dövlətləri- Türkmənistan və Qırğız Respublikaları* | ***2*** | ***2*** | ***4*** |
| *13* | *Azərbaycan Respublikasının türk dövlətləri arasında yeri* | ***2*** | ***2*** | ***4*** |
| *14* | *Muxtarıyyətə malık olan türk dövlət qurumları* | ***2*** | ***2*** | ***4*** |
| *15.* | *Yerli türk xalqları və onların tarixi coğrafi məskunlaşması.* | ***2*** | ***2*** | ***4*** |
| *Cəmi* | | ***30*** | ***30*** | ***60*** |

## *MÖVZU 1. TÜRK DÜNYASININ COĞRAFIYASI KURSUNUN PREDMETİ, TƏDQİQ EDİLMƏSİ.*

Türk dünyası coğrafiyası kursunun məqsəd və vəzifələri, predmeti. Kursun öyrənilməsində istifadə olunan tədqiqat metodları: kartoqrafik, statistik, müqayisə, tarixi yanaşma, rayonlaşma və s.

Türkçülük və tarixi. Türk xalqları və türk dünyasının tədqiqi: İsmayıl Qaspralı, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Mirzə Kazım bəy; F. Tabbert-Stralenberq, V.Radlov, L.Qumulyov, V.Bartold, O.Süleymanov, V.Tomson, S. Malov, N. Baskakov, Faruk Sümer, David Leon Kain- və s.

Türklər haqqında ilk yazılı qaynaqlar: Çin, fars, ərəb salnamələri, rus mənbələrində türklər haqqında yazılar. Avropada türklərin tədqiq edilməsi.

Türklərin ilk yazılı mənbəyi -"Divani –lüğət- it –türk"( Mahmud Kaşqarlı).

Müasir dövrdə türk xalqları. Türk xalqlarının təsnifatı prinsipləri: coğrafi prinsip, linqvistik prinsip, dini mənsubiyyət prinsipi, siyasi prinsip.

***<u>Mövzunun təlim nəticələri:</u>***

*MTN-1 –Türk dünyası coğrafiyası kursunun tədris edilməsinin əhəmiiyyətini şərh edir;*

*MTN-2 – Türklərin yazılı abidəsi Mahmud Kaşğarlının "Divani –lüğət- it –türk"əsərini coğrafi baxımdan müzakirə edir;*

*MTN-3 –Türklər haqqında çin, fars, ərəb salnamələrini şərh edir;*

*MTN-4 –Türk dünyasını araşdıran tədqiqatçıların baxışlarını şərh edir.*

***Qiymətləndirmə tapşırıqları:***

1. *Türk dünyası kursunun mahiyyəti və əhəmiyyətini əsaslandırın.*
2. *Türklər haqqında çin mənbələrində nələr yazılır?*
3. *Fars salnamələrinin qərəzli olma səbəbini izah edin.*
4. *Ərəb salnamələrinə aid məlumat toplayın və təqdim edin.*
5. *Mahmud Kaşğarlının "Divani –lüğət- it –türk" kitabının coğrafi baxımdan şərh edin.*
6. *Türk xalqları və türk dünyasını tədqiq edən alim, tədqiqatçı, türkoloqların fəaliyyətinə aid informasiya toplayın və təqdim edin ( seçmə yolla).*

***Mənbə***


1. *Nizami Cəfərov. Türkologiyaya giriş Elm və təhsil 2016*
2. *Türk dünyasının coğrafiyası və etnosu. I cild AMEA H.Əliyev adına Coğrafya İnstitutu. Bakı. "Avropa" nəşriyyatı 2019*
3. *Cihan Alkan. İlk türkler .İstanbul . Pranayayınları. 2018*
4. *Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı. Maarif . 1991.*
5. *L.Qumulyov. Qədim Türklər "Nauka- 1967, "Gənclik" 1993( Azərbaycan dilinə tərcümə*
6. *L.Qumulyov. Etnogenez və biosfera*
7. *Bahəddin Ögəl. Böyük hun İmperatorluğu*
8. *Р. Ганиев. Китайский письменные источники о восточных тюрках» История 2010*

## *MÖVZU 2. TÜRK DÜNYASININ TARİXİ COĞRAFİYASI.*

Türk etnosu və inkişafı. Türklərin mənşəyi. Prototürklər. Türklərin tarixin səhnəsinə gəlişi (Eramızdan əvvəl III-IV minillik). Türklərdə cəmiyyətin strukturu: ailə (oğuş), ailələr birliyi (uruğ) tayfa (boy), tayfalar birliyi ( budun), xalq (el).

Türk dünyası anlayışı. Türk dünyası ideyasının yaranması və ınkışaf dınamıkası, tədqiq edılməsı. Türk xalqlarının tarixi coğrafi məkan birliyi/ Turan toponimi. Turanın -coğrafi ərazi kimi təhlili. Tarixi coğrafi baxımdan türklərin yayılması: Sak-Skif (Turan) (e.ə III-I minillik), Hun (e.ə I minillik), Göytürk (e.ə. I əsr- b.e VII əsr), Osmanlı, Səfəvi imperiyalarının coğrafi baxımdan təhlili.

Türk xalqlarında milli kimliyin formalaşması. Müasir dövrdə türk xalqlarında milli kimlik(identiklik)., qloballaşma, multikultiralizm.

***<u>Mövzunun təlim nəticələri:</u>***

*MTN-1 – Türk etnosunun formalaşmasının tarixi-coğrafi baxımdan izah edir;*
*MTN-2 – Türk dünyası və Turan anlaşıylarını müqayisə edir;*
*MTN-3 –Türk dövlətlərinin coğrafi sərhədlərini şərh edir;*
*MTN-4 –Türk xalqlarında milli kimliyin formalaşmasının mahiyyətini şərh edir.*

***<u>Qiymətləndirmə tapşırıqları:</u>***

1. *Türk etnosunun inkişafında hansı mərhələlər vardır?*
2. *Prototürklərə aid informasiya toplayıb təqdim edin.*
3. *Türk dünyası və Turan anlayışını müqayisə edin.*
4. *Tarixi mənbələrdə Sak (Turan), Hun və Göytürk imperiyalarının mövcud olduğu ərazilərin xəritə- sxemini çəkin.*

*5. Qədim türklərdə cəmiyyətin strukturu necə idi?*
*6.Qloballaşan dünyada türklərdə yaranan problemlər nədir?*
*7.Türk xalqlarının multikultural xüsusiyyətə malik olmasına aid dəlillər gətirin.*
*8.Türk etnosunun inkişafı üçün hansı istiqamətlərdə və hansı işləri görmək tələb olunur?*
*9.Milli kimliyin tanınmasına aid anket sorgusu tərtib edin.*

***Mənbə***


1. *Nizami Cəfərov. Türkologiyaya giriş Elm və təhsil 2016*
2. *Cihan Alkan. İlk türkler .İstanbul . Pranayayınları. 2018*
3. *Ziya Göyalp Türkçülüyün əsasları. Bakı. Maarif . 1991.*
4. *L.Qumulyov Qədim Türklər "Nauka- 1967, "Gənclik" 1993( Azərbaycan dilinə tərcümə*
5. *L.Qumulyov Etnogenez və biosfera*
6. *Bahəddin Ögəl. Böyük hun İmperatorluğu*
7. *Ə.Əlizadə Azərbaycan etnopsixologiyasına giriş . Renesasns 2003*
8. *M.Musayev, M.Mirzəyev Türk dünyası "Müəllim" nəşriyyatı 2004*
9. *Cavanşır Feyziyev. Türk dünyası V cild*
10. *Cavanşir Feyziyev Türk dünyası I cild*
11. *Ramin Qurbanov Türk xalqlarının tarixi Bakı 2011*

## *MÖVZU 3. TÜRK DÜNYASININ BİRLƏŞDİRƏN ÜMUMİ CƏHƏTLƏR*

Türk xalqlarını birləşdirən ümumi cəhətlər. Müasir dövrdə mövcud olan türk xalqları: Türklər (Türkiyə türkləri) azərbaycanlılar (Azərbaycan türkləri) uygurlar, özbəklər, qazaxlar, qırğızlar, türkmənlər, türkmanlar, çuvaşlar, tatarlar, Ahıxska türkləri, başqordlar, Krım tatarları, noqaylar, kumıklar, tuvalar, altaylar, yakutlar qaraçaylar, sorlar, qaraimlər, qaqauzlar, balqarlar, İran türkləri.

Türklərin antropoloji xüsusiyyətləri. Müasir dövrdə türkdilli xalqalrda irqi müxtəlifliyinın səbəbləri.

Dil ümumiliyi. Türk dillərinin təsnifatı. Altay dil ailəsi. Altay-Ural dil ailəsinin tərkibi: türk, tunqus-mancur, fin-uqor, Ural, samoyed, Koreya, yapon dillərinin ümumiliyi. Coğrafi termin və anlayışların müxtəlif türk dillərində səslənməsi.

Türk dünyasında mənəvi və maddi mədəniyyət. Orxon - Yenisey abidələri. Əlifbaların müxtəlifliyinin və dəyişməsinin yaratdığı problemlər. Yazı və əlifba birliyinin əhəmiyyəti. Ortaq yazı ideyası. Ortaq dərs kitablarının tərtib edilməsi

Türk xalqlarında dini inanclar. Qədim türklərin dini baxışları. Dini inancların müxtəlifliyinin səbəbləri. Türk xalqlarının yayılma arealı və dini bağlılığı.

Türk xalqlarında təqvim. Milli və dini bayramlar. Türk xalqlarında maddi dəyər verilən (müqəddəs və ya qutsal) yerlər.

Qədim türk mifologiyası. Türklərin erkən mədəniyyətində rəmzlər. “Erqonokon”, “Manas”, “Kitabi-Dədə Qorqud”və s. dastanlarının əhatə etdiyi coğrafi ərazilər.

Adət-ənənələrin oxşarlığı. Türk mentaliteti, mentifaktlar.

Maddi mədəniyyət: Qayaüstü rəsmlər, kurqanlar və onların yayıldığı ərazilər.

Türk xalqlarının məşğuliyyəti və maddi mədəniyyətinin inkişafında ətraf mühitn rolu. ( dəmirçilik, toxuculuq, əkinçilik, atçılıq, ovçuluq, dulusçuluq və s.). Maddi mədəniyyət nümunələrində türk xalqlarına məxsus naxış və bəzəklərin yayılması.

Türk xalqlarının milli mədəniyyətin qorunması: Milli muzey, Etnoqrafiya muzeyi, Milli arxiv, Milli kitabxana və s yaradılmasının əhəmiyyəti.

***Mövzunun təlim nəticələri:***

*MTN-1 –Türk dünyasının tərkibinə daxil olan xalqları təsnif edir;*
*MTN-2 –Türk xalqlarının ümumi cəhətlərini sadalayır;*
*MTN-3 – Müasir dövrdə türk xalqlarında din, yazı, dil, fərqlərinin olmasını əsaslandırır;*
*MTN-4 –Türk xalqlarının yayıldığı ərazilərin xəritə-sxemini çəkir*
*MTN-5 –Türk xalqlarının yazı müxtəlifliyinin səbəblərini izah edir;*
*MTN-6 – Türk xalqlarının maddi və mədəniyyət abidələrinin yayılmasını izah edir;*
*MTN-7 –Türk xalqlarının adət-ənənələrinə dair məlumatları təqdim edir*

***Qiymətləndirmə tapşırıqları:***

1. *Yer kürəsində yaşayan türk xalqları hansılardır?*
2. *Oguz, qıpçak, bulkar, uyğur qruplarıının tərkibinə daxil olan xalqları sadalayın.*
3. *Müasir dövrdə mövcud olan türk xalqlarının yayıldığı ərazilərin xəritə sxemini çəkin.*
4. *Türk xalqlarını birləşdirən ümumi cəhətlər hansılardır?*

5. *Müasir dövrdə türk xalqlarında genetik kodların təhlil edin.*
6. *Türk dillərində alınma sözlərin olmasının səbəblərini izah edin.*
7. *Müxtəlif coğrafi termin və anlayışların müxtəlif türk dillərində lüğətini hazırlayın.*
8. *Türk xalqlarında həyatında atçılığın üstün olmasının səbəblərini izah edin.*
9. Orxon Yenisey *abidələrinin türk yazı mədəniyyətindəki* rolunu *əsaslandırın.*
10. *Türk xalqlarında dini inancların müxtəlifliyin səbəblərini izah edin.*
11. Gök *Tenqri* ( "𐱅𐰭𐰼𐰃") *dininin mahiyyətinə aid esse yazın.*
12. *Türk xalqlarının kutsal ərazilərinə aid məlumat toplayın və təqdim edin.*
13. *"Erqonokon", "Manas", "Kitabi-Dədə Qorqud" və s dastanlarının əhatə etdiyi coğrafi əraziləriin xəritə*-sxemini *çəkin.*
14. *Müxtəlif türk xalqlarının milli bayramlarına aid informasiya toplayın və təqdim edin.*
15. *Türk xalqlarında dəmirçilik,* dulusçuluq *sənətlərinin inkişaf etməsi səbəblərini təhlil edin.*
16. *Keramika, xalça üzərində naxışların nümunələrini toplayın.*
17. *Müasir türk xalqlarına qloballaşmanın təsirlərini sadalayın.*
18. *Göytürk əlifbası ilə öz adınızı, soyadınızı yazın.*

***Mənbə***


1. *Türkçülüyün əsasları . Ziya Göyalp Maarif nəşriyyatı 1992*
2. *"Böyük Hun İmeriyası" Bahəddin Ögəl 1992 ci il Bakıı Gənclik*
3. *Türkologiyaya giriş. Nizami Cəfə*rov . elm və təhsil 2016
4. *Reha Yılmaz Tariximizdə iz qoyanlar.Xəzər nəşriyyatı.2008*
5. *M.Musayev, M.Mirzəyev Türk dünyası "Müəllim" nəşriyyatı 2004*

6. *Türk dünyasının coğrafiyası və etnosu I cild. AMEA Coğrafiya İnstitutu 2019*
7. *Dərgah Qüdrətov Türk xalqlarının tarixi Bakı Kövsər nəşriyyatı2004*
8. *Cavanşir Feyziyev "Türk dövlətləri birliyi: qlobal inteqrasiyanın Avrasiya modeli" 2013 Bakı*

## *MÖVZU 4. TÜRK DÜNYASININ*

## *SİVİLİZASİYALARARASI MÖVQEYİ*

Dünya sivilizasiya müstəvisində Türk sivilizasiyası. Türk sivilizasiyası lokal sivilizasiya kimi. Passionarlıq və türk sivilizasiyanın inkişafında rolu. Sivilizasiyaların formalaşmasında təbii-coğrafi amillərin təsiri. Nomatik (Çöl landşaftı) sivilizasiya və türk xalqlarının yeri.

Türk dünyasının Avrasiya materikində sivilizasiyalar arası mövqeyi və onun geosiyasi cəhətdən qiymətləndirilməsi. Sivilizasiyaların kəsişməsində türk dünyasının mövqeyi.

Türk sivilizasiyası ilə digər sivilizasiyalar (Çin, Provoslav, İslam, Ərəb, Qərb) arasında münasibətlərin formalaşması.

Türk sivilizasiyasının formalaşmasında Böyük İpək yolunun rolu.

***Mövzunun təlim nəticələri:***

*MTN-1 – Türk dünyasının sivilizasiyalar arasında mövqeyini qiymətləndirir;*
*MTN-2 – Türk sivilizasiyasının formalaşmasında təbii mühit amillərin rolunu əsaslandırır;*
*MTN-3 –Türk sivilizasiyasının Şərq sivilizasiyasında mövqeyini təhll edir;*
*MTN-4 – Böyük İpək yolunun türk sivilizasiyasındakı rolunun müasir dövrdə bərpasının vacibliyini dəyərləndirir.*

***Qiymətləndirmə tapşırıqları:***

1. *Sivilizasiya nədir?*
2. *Dünyada hansı sivilizasiyalar mövcud olmuşdur?*
3. *Türk sivilizasiyasının formalaşmasına təsir edən amillər hansılardır?*

4. *Təbi-coğrafi amillər türk sivilizasiyasının formalaşmasına necə təsir etmişdir?*
5. *Qərb sivilizasiyasının türk sivilizasiyasına təsirini izah edin.*
6. *Çin sivilizasiyasının Türk sivilizasiyasına təsirini izah edin.*
7. *İslam dinin türk sivilizasiyasına təsirini təhlil edin.*
8. *Türk və Ərəb sivilizasiyalarını müqayisə edin.*
9. *Türk - İran sivilizasiyaları arasında münasibətləri müzakirə edin.*
10. *Passionarlığın sivilizasiyanın inkişafındakı rolunu qiymətləndirin.*
11. *Böyük İpək yolunun türk sivilizasiyasının inkişafına təsirini şərh edin.*
12. *Müasir dövrdə ipək yolunun bərpasının əhəmiyyətinə dair referat yazın və təqdim edin.*

***Mənbə***


1. *Ərəstü Həbibbəyli. "Sivilizasiyalarin kəsişməsində türk dünyasə". Elm və təhsil 2011*
2. *L.Qumulyov. "Qədim Türklər" "Nauka- 1967, "Gənclik" 1993( Azərbaycan dilinə tərcümə*
3. *M.Musayev, M.Mirzəyev "Türk dünyası" "Müəllim" nəşriyyatı 2004*
4. *Cavanşir Feyziyev "Türk dünyası" I cild*
5. *Əsməd Muxtarova "Türk xalqların tarixi" ( qədim və orta əsrlər) Adiloğlu nəşriyyatı 2013*

## *MÖVZU 5. TÜRK XALQLARININ MIQRASIYASI*

Türk xalqlarının Avrasiya materikində geniş yayılmasının səbəbləri. Altay, Şimalı və Şimal-Qərbi Çin, Tyan-Şan dağları regionu, Ön Asiya, Qərbi Asiya, Mərkəzi Şimal-Qərbi Sibir, Baykalətrafı, İrtış və Ural çayları arası, Ural Volqaboyu, Şərqı Avropa, Qafqaz.

Altay və Ön Asiya (və ya Urmi) nəzəriyyələri, onların mahiyyəti. Xalqların Böyük Köçü və türklərin köçlərdə rolu.

Türk köçlərinin əsas səbəbləri: (təbii, iqtisadi, sosial, siyasi, hərbi və s. Sovet hakimiyyəti illərində baş verən məcburi köçürmələr.

***<u>Mövzunun təlim nəticələri:</u>***

*MTN-1 – Türk xalqlarının iqtisadi həyatında köçürmələrin səbəblərini təhlil edir;*
*MTN-2 – Türklərin köçürülməsinə təbii amillərin təsirini izah edir;*
*MTN-3 Xalqların böyük köçünün səbəblərini, istiqamətini müsbət və mənfi cəhətdən qiymətləndirir;*
*MTN-4 –Sovet dövründə türk xalqlarının köçürlüməsi səbəblərini və istiqamətlərini qiymətləndirir;*
*MTN-5 – Müasir dövrdə türklərin miqrasiya səbəblərini müzakirə edir.*
*MTN-6 – Türk xalqlarının tarixi məskunlaşmasında Altay və Ön Asiya nəzəriyyələrinin mahiyyətini təhlil edir.*

***<u>Qiymətləndirmə tapşırıqları:</u>***

1. *Türk xalqlarının Avrasiya materikində yayıldığı regionların xəritə-sxemini çəkin.*
2. *Türk köçlərinin iqtisadi səbəblərini təhlil edin.*
3. *Türk köçlərinə təbii amillərin təsirini izah edin.*
4. *Hərbi- siyasi baxımdan türk köçlərini qiymətləndirin.*

5. *Türk köçlərinə təsir edən digər səbələrə aid esse yazın.*
6. *Sovet hakimiyyəti illərində baş verən məcburi köçmələrin xəritə sxemini qurun.*
7. *Sürgünlər, repressiya qurbanları, məcburi evakuasiyalara aid statistik rəqəmlər əldə edin və təqdim edin.*
8. *Müasir dövrdə baş verən miqrasiyaların səbəblərini və istiqamətlərini əsaslandırın.*
9. *Altay nəzəriyəsinin mahiyyətini izah edin.*
10. *Ön Asiya və ya Urmi nəzəriyyəsinin mahiyyətini izah edin.*
11. *Türk xalqlarının geniş bir coğrafiyada yayılmasının səbəblərini təhlil edin.*
12. *Türk köçlərinin xəritə sxemin çəkin.*
13. *Yurta və alaçıqların əsas yaşayış forması olduğunu əsaslandırın.*

***Mənbə***


1. *L.Qumulyov "Qədim Türklər" "Nauka- 1967, "Gənclik" 1993( Azərbaycan dilinə tərcümə*
2. *M.Musayev, M.Mirzəyev "Türk dünyası" "Müəllim" nəşriyyatı 2004*
3. *Ərəstü Həbibbəyli "Sivilizasiyalarin kəsişməsində türk dünyası". Elm və təhsil 2011*
4. *Cavanşir Feyziyev Türk dünyası II cild*
5. *Türk dünyasının coğrafiyası və etnosu I cild. AMEA Coğrafiya institutuBakı 2019*

## *MÖVZU 6. TÜRK TOPONIMLƏRI VƏ ONLARIN COĞRAFI PAYLANMASI.*

Türk xalqalrına məxsus toponmlər. Türk xalqlarının yaşadığı ərazilərdə toponimlərin tarixi baxımdan təhlili. Coğrafi adların təbii şəraiti əks etdirməsi. Türk dillərində səma cisimlərinin adları. Oykonimlər, etnonimlər, oronimlər, hidronimlər və onların coğrafi paylanması. Türk mənşəli coğrafi adların dəyişikliyə uğraması və onun səbəbləri ( siyasi, sosial- məişət və s).

***Mövzunun təlim nəticələri:***

*MTN-1 – Toponimika elminin türk xalqlarının tarixindəki rolunu qiymətləndirir;*
*MTN-2 – Türk mənşəli coğrafi toponimlərin geniş bir ərazidə yayılmasının səbəblərini izah edir;*
*MTN-3 –Türk mənşəli etnonimlərin təkrarlanması səbəblərini təhlil edir;*
*MTN-4 – Coğrafi adların dəyişikliyə uğradılmasının siyası baxımdan təhlil edir.*

***Qiymətləndirmə tapşırıqları:***

1. *Toponimika elminin əhəmiyyətini izah edin.*
2. *Toponimika elminin tədqiq edilməsində tarixi və genetik əlaqələri şərh edin.*
3. *Türk mənşəli coğrafi adların yayıldığı ərazilərin xəritə-sxemini çəkin.*
4. *Türk mənşəli etnonimlərin siyahisini yaradın.*
5. *Oronimlərin türk dillərində təkrarlanmasına dair referat yazın.*
6. *Türk mənşəli hidronimlərin lüğətini hazırlayın.*
7. *Türk mənşəli coğrafi adların dəyikliyə uğradılmasına dair siyahi hazırlayın.*

***Mənbə***


1. *Türk kökənli sözlərin dünya dillərində təzahürü Əhmədova Elnarə Hüseynağa qızı. Sumqayıt Dövlət Universiteti – "ELMİ XƏBƏRLƏR"– Sosial və humanitar elmlər bölməsi Cild 16 № 2 202*
2. *Türk mənşəli beynəlmiləl onomastik vahidlər (müqayisəli onomastika). Aydın Paşayev Bakı - 2 0 17*
3. *Топонимия Азербайджана. Г.Гейбуллаев.Баку 1986*
4. *Toponimika. N.Məmmədov BDU nəşriyyatı 2007*
5. *Qədim türklər və Ermənistan .Q. Qeybullayev Bakı 1992*
6. *Türk dünyasının coğrafiyası və etnosu. I cild. Fiziki coğrafiya. AMEA Coğrafiya İnstitutu 2019*
7. *Türk uluslarının yer yaddaşı.B.Budaqov, Bakı. Elm. 1994.*

## *MÖVZU 7. TÜRK DÜNYASI ƏRAZISININ FİZİKİ COĞRAFİYASI VƏ TƏBII EHTIYALARININ QIYMƏTLƏNDIRILMƏSI*

Türk dünyasının fiziki coğrafi mövqeyin əsas cəhətləri. Türk xalqlarının yaşadığı ərazinin coğrafi koordinatlarının müəyyən edilməsi. Geoloji-tektonik baxımdan türk xalqlarının yaşadığı ərazilərin təhlili. Relyefin və ondan istifadə imkanları. Faydalı qazıntılar- yanar, filiz və qeyri-filiz faydalı qazıntılar. Faydalı qazıntıların ölkələr üzrə paylanması. Dünyanın təbii ehtiyat fondunda türk dünyasının ərazisində olan yataqların qiymətləndirilməsi. İqlim şəraiti. İqlimin müxtəlifliyinin qiymətləndirilməsi. Türk dünyası ərazisində çaylar onlardan istifadə. Göllər. Daxili suların başqa növləri. Torpaq ehtiyatları və qiymətləndirilməsi. Türk dünyasında təbii zonalar: tundra, meşə-tundra, meşə, çöl, meşə-çöl, yarımsəhra, səhra, codyarpaqlı meşə və kolluqlar. Türk dünyasında flora və fauna. Türk xalqlarının yaşadığı ərazilərdə landşaftların müxtəlifliyi. Müasir landşaftın dəyişməsi və onun səbəbləri. Antropogen landşaftların geniş yayıldığı ərazilər. Türk dünyasında təbiətin mühafizə məsələləri.

***Mövzunun təlim nəticələri:***

*MTN-1 – Türk dünyasının mövqeyini qiymətləndirir;*
*MTN-2 –Türk xalqlarının yaşadığı ərazilərin təbii şəraitini qiymətləndirir;*
*MTN-3 –Türk dünyasında olan təbii ehtiyatların istifadə olunmasında mövud problemləri izah edir;*
*MTN-4 –Türk xalqlarının yayıldığı ərazilərdə yayılan landşaftların səciyyəsini yazır*
*MTN-5 Türk dünyası ərazisində yerləşən dağ, düzənlik, çay, göl, faydalı qazıntı yataqlarının adlarını sadalayır.*

***Qiymətləndirmə tapşırıqları:***

1. *Türk dünyasının mövqeyini qiymətləndirin*
2. *Türk xalqlarının yaşadığı ərazilərin iqlim xüsusiyyətlərinə aid referat yazın.*
3. *Türk dünyası ərazisində çaylar və göllərin xəritə-sxemini çəkin.*
4. *Türk xalqlarının yaşadığı ərazilərdə landşaftların müxtəlifliyini izah edin.*
5. *Türk xalqlarının yaşadığı ərazilərdə meşələr və səhra landşaftının yayıldığı ərazilərin xəritə-sxemini çəkin.*
6. *Çol landşaftının türk xalqlarının həyatında təsirinə dair referat yazın.*
7. *Türk xalqlarının yaşadığı ərazilərin geoloji-tektonik baxımdan təhlil edin.*
8. *Ən mühüm faydalı qazıntı yataqlarını ölkələr üzrə qruplaşdırın.*
9. *Faydalı qazıntı yataqlarında ehtiyatlların miqdarına aid informasiya toplayın təqdim edin.*
10. *Faydalı qazıntı yataqlarının xəritə-sxemini çəkin.*

***Mənbə***


1. *Türk dünyasının coğrafiyası və etnosu I cild. Fiziki coğrafiya. AMEA. Coğrafiya İnstitutu. Bakı 2019*
2. ***2.** M.Musayev, M.Mirzəyev Türk dünyası "Müəllim" nəşriyyatı 2004*
